# İrana Şuşa dağı

**Azərbaycan 2020-ci ilin noyabrında ermənіyanlı İrana elə bir Şuşa dağı çəkib ki, tüstüsü hələ də başından çıxır...Ermənistanın, dolayısı yolla da terrorçu İranın başına endirilən "dəmir yumruğ"un zərbəsindən sarsılaraq olmayan qibləsini də itirən molla rejimi onsuz da heç zaman yürüdə bilmədiyi xarici və daxili siyasətində əməlli-başlı sərsəmləməyə başlayıb.**

Terrorçu rejim gah hirshikkəsini öz vətəndaşlarına yönəldərək ölkəni "dar ağaclığı"na çevirir, gah da özünə düşmən hesab etdiyi tarixi qonşusu, dinbiri Azərbaycana açıq hücumlara keçir.

O başqa məsələdir ki, məkrli mollaların ölkəmizə qarşı bu xain əməllərinin cavabı hər dəfəsində layiqincə verilir və yerlərinə otuzdurulur.

Elə yanvarın 27-də nümayişkaranə şəkildə ölkəmizə qarşı qanlı terror aktı həyata keçirən zaman İranın qatil əlaltısının gülləsinə sipər olaraq onu əliyalın tərk-silah edən və səfirliyimizdə törətmək istədiyi daha böyük qətliamın qarşısını alan azman igidin də şuşalı olması terrorçu rejimə İlahinin bir ironiyası, vurduğu tərs şillədir.

Bəli, bu onun göstəricisidir ki, erməniрərəst fars rejimi ölkəmizə qarşı istənilən hücumunda sarsılmaz Şuşa zirvəsinin önündə Azərbaycana baş əyməyə, tərk-silah olunmağa, məhvə məhkumdur...

## Müsəlman adına qara ləkə

Azərbaycan Vətən müharibəsində Ermənistan üzərində parlaq qələbə qazandıqdan sonra terrorçu İran ölkəmizə qarşı riyakar üzünü açıq göstərməyə başlayıb.

Din adı altında pərdələnən İran rejimi 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan isə təcavüzkar Ermənistana hər cür dəstək verib. Ötən müddət ərzində İran rəhbərləri bir dəfə də olsun Xocalı soyqırımı, işğal olunmuş Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerləyeksan olunması, təhqir edilməsi, minlərlə müsəlmanın qətlə yetirilməsi barədə Ermənistana bir kəlmə də deməyib.

Əksinə, terrorçu İran rejimi özü erməni vandallarının vəhşi əməllərinə ortaq olub. Faktlarla sübut olunub ki, Tehran bu illər ərzində erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirak edib. İşğalçı ölkə Ermənistan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını İrana satıb, həmçinin oradakı meşələrimiz qırılaraq İrana daşınıb.

Bu da təsdiqlənmiş faktdır ki, işğal dövründə Ermənistanla İran arasında geniş miqyasda iqtisadi əlaqələr olub, birgə iqtisadi layihələr icra edilib. İranla Ermənistan arasında uzunluğu 140 kilometr olan qaz kəməri çəkilib. Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) dəstəklədiyi yük maşınları ilə yanacaq və silah daşıyıb.

Azərbaycanın işğal altında olan əraziləri həm narkotik plantasiyalarının yaradılması, narkotik maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Bu ərazilərdən narkotrafik marşrutu kimi istifadə məsələsində İran xüsusi fəallığı ilə seçilib.

## Qatil İran yenə əlini şəhidimizin qanına batırdı

Sözdə müsəlman olan bu dinsiz ölkə Vətən müharibəsi dövründə də Ermənistanın qalib gəlməsi üçün Azərbaycana qarşı olmazın çirkin əməllər törədib.

Azərbaycan qonşuları Ermənistan və İranın "xainlər ittifaqı"nın başını əzərək torpaqlarını işğaldan azad etdikdən sonra İran riya maskasını çıxarmağa məcbur oldu. Xüsusilə də Zəngəzur dəhlizi məsələsi aktuallaşandan dərhal sonra İran Azərbaycana qarşı açıq-aşkar düşmənçiliyə başladı.

Bədnam planları alt-üst olduğu üçün saxta islam respublikası Azərbaycana qarşı yenə də çirkin oyunlara başladı. Sərhədimizdə hərbi təlimlər keçirən fars rejimi Qafanda konsulluğunu açdı, Ermənistana öz istehsalı olan silahlar hədiyyə etdi.

Bir sözlə, Birinci və İkinci Qarabağ müharibələrində İran tərəfi Ermənistana kəşfiyyat materialları ötürməsi, Azərbaycan Ordusunun irəliləməsinə mane olması və digər əməlləri ilə əlini şəhidlərimizin qanına batırdı.

Yanvarın 27-də Tehrandakı səfirliyimizə edilən qanlı hücum da bu xain əməllərin davamıdır və dinsiz İran yenə də əlini azərbaycanlı zabitin, daha bir şəhidimizin qanına buladı.

Əgər həmin hücum zamanı səfirliyimizin təhlükəsizlik xidmətinin əməkdaşı Vasif Tağıyev terrorçunu zərərsizləşdirməsəydi, səfirliyin bütün əməkdaşlarının qətlə yetirilməsi planlanmışdı.

Hadisəni törədən şəxs Yasin Hüseynzadə İran vətəndaşıdır, onun İranın xüsusi xidmət orqanları, xüsusilə də SEPAH-la əlaqəli olduğuna dair şübhələr var.

Daha bir diqqətçəkən məqam isə, kadrlardan da aydın






göründüyü kimi, həmin ərazidə olan polisin terrorun qarşısını almaq üçün heç bir cəhd göstərməməsi, eləcə də hər hansı operativ addımların atılmaması oldu.

İran tərəfi dərhal məsuliyyəti üzərindən atmaq üçün məsələnin mahiyyətini təhrif etməyə, problemi məişət hadisəsi kimi göstərməyə, bununla da İran xüsusi xidmət orqanları ilə bağlılığı olan terrorçunun hədəfdən yayındırılmasına, yerli və beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırılmasına çalışdı.

## Bu terrorun sifarişçisi İrandır

Bütün bu faktlar sübut edir ki, Tehranda səfirliyimizə qarşı həyata keçirilən bu qanlı hadisə terror aktıdır və sifarişçisi İran dövlətidir. Törədilmiş bu terror aktı indiyə qədər İranda aparılmış anti-Azərbaycan təbliğatının və fəaliyyətinin qanlı nəticəsidir.

Amma saxta islam respublikası bu çirkin əməlləri ilə heç nəyə nail ola bilməyəcək. Çünki bölgənin şəriksiz lideri Azərbaycandır və onunla hədə və güc dili ilə danışmaq mümkün deyil. Qüdrətli Azərbaycan milli mənafelərini təhdid edən bütün düşmənlərinin, eləcə də erməniрərəst İranın layiqli cavabını verməyə hər zaman qadirdir.

Bunu ötən ilin noyabrında Bakıda keçirilən "Orta dəhliz boyunca: siyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyev də qətiyyətlə bəyan etmişdi: "Biz də onlardan qorxmadığımızı nümayiş etdirmək üçün İran sərhədində hərbi təlimlər təşkil etməli olduq. Biz onlara deyirik ki, onlardan qorxmuruq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 29 yanvar.- S. 7.